# MƏHLULLARIN TERMODİNAMİKASI, MƏHLUL KOMPONENTLƏRİNİN KİMYƏVİ POTENSİALI

**T.Ə.Ağdamski**

*k.e.d., professor, əməkdar müəllim, Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məhlulların fiziki-kimyəvi xassələrinin daha da ətraflı öyrənilməsi üçün onlara bir neçə termodinamiki anlayışların və tənliklərin tətbiq edilməsi olduqca vacibdir. Bu məqsədlə məhlulların termodinamikasını ifadə etmək üçün ilk növbədə məhlul komponentlərinin kimyəvi potensialının tənliyini əldə etmək lazımdır. Kimyəvi potensial anlayışı elmə Hibbs tərəfindən daxil edilmişdi. Xarakterik funksiyanın molların sayına görə xüsusi törəməsi $\mu$ hərfi ilə işarə olunur və kimyəvi potensial adlanır. Əsas xarakterik funksiya olan Hibbs enerjisi ($G$) üçün:

$$\mu_1 = \left(\frac{\partial G}{\partial n_1}\right)_{T,P,n_2,n_3...n_k} \quad \text{olar.}$$

Hər hansı $i$ komponent üçün

$$\mu_i = \left(\frac{\partial G}{\partial n_i}\right)_{T,P,n_1,n_2} \quad \text{olar.}$$

Sistemə verilən komponentdən $dn_1$ miqdar daxil edildikdə başqa komponentlər və temperatur təzyiq sabit qaldıqda Hibbs enerjisi $\left(\frac{\partial G}{\partial n_1}\right)$ qədər qiymətini dəyişəcəkdir. İzobar izotermik potensialın əsas differensial tənliyi $dG = -SdT + VdP$ kimyəvi potensial qiyməti nəzərə alınmaqla kimyəvi proseslərə aşağıdakı şəkildə tətbiq edilir:

$$dG \le -SdT + VdP + \Sigma\mu_i dn_i$$

burada $\Sigma\mu_i dn_i$ ifadəsi qısa şəkildə Hibbs enerjisinin dəyişməsini göstərir ki, bu da komponentlərin miqdarı dəyişkənliyi ilə əlaqədardır.

Eyni qayda üzrə $dF$; $dU$ və $dH$ xarakterik funksiyaları üçün məlum differensial tənliklərə kimyəvi potensialların qiymətləri daxil edilməlidir,

Helmholts enerjisi üçün $dF \le -SdT - PdV + \Sigma\mu_i dn_i$

daxili enerji üçün $dU \le TdS - PdV + \Sigma\mu_i dn_i$

entalpiya üçün $dH \le TdS + VdP + \Sigma\mu_i dn_i$

Bu zaman hər komponentin kimyəvi potensialı $F$, $U$, $H$ funksiyalarının

xüsusi törəməsi şəklində göstərilə bilər, birinci komponent üçün

$$\mu_1 = \left(\frac{\partial F}{\partial n_1}\right)_{T,V,n_2,n_3,n_k}; \quad \mu_1 = \left(\frac{\partial U}{\partial n_1}\right)_{S,V,n_2,n_3,n_k};$$

$$\mu_1 = \left(\frac{\partial H}{\partial n_1}\right)_{S,P,n_2,n_3,n_k}$$

Tənliklərində yuxarıda qeyd edildiyi kimi bərabərlik işarəsi tarazlıq halına və dönən proseslərə qeyri bərabərlik işarəsi isə dönməyən proseslərə aiddir.

Sistemin tarazlıq halında

$$\Sigma \mu_i dn_i = 0 \quad \text{olur.}$$

Qeyd etmək lazımdır ki, verilmiş şəraitdə prosesin öz-özünə getməsi o zaman mümkündür ki,

$$\Sigma \mu_i dn_i < 0 \quad \text{olsun.}$$

İstehsalat və ya laboratoriya şəraitində habelə təbiətdə baş verən müxtəlif kimyəvi və fiziki proseslər sabit $P$ və $T$ və yaxud sabit $V$ və $T$ dedən proseslər sabit entropiyada gedən proseslərdən daha çox işlədilir. Bu səbəbdən $dG$ və $dF$ olan tənliklər $dU$ və $dH$ olan tənliklərdən daha çox istifadə olunur.

Göstərilən münasibətlər homogen və heterogen sistemlərdə tarazılığın öyrənilməsində böyük əhəmiyyət kəsb edir.

Qeyd edək ki, $i$ komponentinin $\mu_i$ kimyəvi potensialı hər hansı qarışıq fazada Hibbs enerjisinə $G_i$ bərabər olur. Ona görə də sadə fazalarda kimyəvi potensialın qiyməti Hibbs enerjisinə uyğun gəlir. İstənilən qarışıq fazada

$$G = \Sigma \mu_i dn_i$$

$$dG = \Sigma \mu_i dn_i + \Sigma n_1 d\mu_1 \quad \text{olur.}$$

Bu tənliyikdə $dG = -SdT + VdP + \sum \mu_i dn_i$ qiymətini yerinə yazsaq

$$SdT - VdP + \sum n_i d\mu_i = 0 \quad \text{alarıq.}$$

Bu tənlik Hibbs-Dyüqem tənliyi olub, məhlullar nəzəriyyəsində geniş sürətdə istifadə olunur. Sabit temperatur və təzyiqdə

$$\Sigma n_i d\mu_i = 0 \quad \text{olur.}$$

Məhlullar nəzəriyyəsi termodinamikada mühüm yer tutur. Məhlulların əmələ gəlməsi kimyəvi reaksiyaların getmə şəraitini dəyişdirir. Onların xassələri termodinamiki kəmiyyətlərlə $H$, $U$, $F$, $G$ və b. xarakterizə olunur. Məhlul komponentlərinin molekullararası qarşılıqlı təsiri nəticəsində baş verən termodinamiki dəyişkənlik ayrı-ayrı komponentlərə deyil, bütövlükdə məhlula aid edilir. Lakin məhlulun ayrı-ayrı komponentlərinə dərəcədə təsir etməsini xarakterizə etmək də vacibdir. Bu məqsədlə parsial molyar kəmiyyətlərdən

istifadə olunur. Miqdari ifadə oluna bilən xassələrin əksəriyyəti iki qrupa bölünür: ekstensiv və intensiv. Ekstensiv xassələr maddə miqdarı ilə mütənasib olur. Bunlara həcm, kütlə, daxili enerji, entropiya aiddir. Məsələn, iki eyni metal parçalarının daxili enerjisi bir parça metalın daxili enerjisindən iki dəfə çox olur. Mürəkkəb sistemin ekstensiv xassələri adiabatik olaraq onun ayrı-ayrı hissələrinin ekstensiv xassələrindən təşkil edilir.

Maddə miqdarından asılı olmayan təzyiq, temperatur intensiv xassələrdir. İntensiv xassə kəmiyyətləri sistemin bütün hissələrində bərabərləşməyə çalışır. Parsial molyar kəmiyyəti Lüis hər hansı $g$ ekstensiv kəmiyyətinin məhlulun $i$ komponentinin $n_i$ mol hissəsinə görə sabit təzyiq və temperaturda xüsusi törəməsi kimi adlandırmışdı. Yəni:

$$\bar{g}_i = \left(\frac{\partial g}{\partial n_i}\right)_{n,P,T}$$

Əgər sabit təzyiq və temperaturda olduqca böyük həcmli məhlula 1 mol hər hansı komponent əlavə olunursa, bu şərait ödənilir. Bu halda məhlulun qatılığı dəyişilmir və məhlulun xassəsinin dəyişməsi isə əlavə olunan komponentin parsial molyar kəmiyyəti olacaqdır. Məsələn, Parsial molyar həcm

$$\bar{V}_i = \left(\frac{\partial V}{\partial n_i}\right)_{n,P,T}$$

tənliyi ilə təyin edilir. Parsial molyar kəmiyyətlər arasında parsial molyar sərbəst enerji xüsusi əhəmiyyət kəsb edir:

$$G_i = \left(\frac{\partial G}{\partial n_i}\right)_{n,P,T}$$

Bu kəmiyyət eyni zamanda kimyəvi potensial adlanır. Temperatur və təzyiq kimi kimyəvi potensial da intensiv kəmiyyətdir. Beləliklə sistemin müxtəlif hissələrində təzyiq, temperatur və kimyəvi potensialın bərabər olması termiki, mexaniki və kimyəvi tarazlığın bərabərlik şəraitini ifadə edir. Məhlulların termodinamikasının öyrənilməsində yuxarıda qeyd etdiyimiz Hibbs-Dyüqem tənliyi ilə yanaşı olaraq Hibbs-Dyüqem-Marqules tənliyinin də böyük əhəmiyyəti vardır. Bu tənlik kimyəvi potensiallar arası və eyni zamanda məhlul komponentlərinin doymuş buxarındakı parsial təzyiqlər arası əlaqə yaradır.

Doymuş buxarda məhlul komponentlərinin parsial təzyiqlərinin dəyişməsini biri-biri ilə əlaqələndirsək, $T = const$ olduqda doymuş buxara ideal qaz kimi baxmaq olar. Bu halda yazmaq olar ki,

$$\mu_i = \mu_i^0 + RT \ln P_i$$

Buradan

$$d\mu_i = RTd\ln P_i$$

Bu qiymәti Hibbs-Dyüqem tәnliyindә yerinә yazsaq, Hibbs-Dyüqem-Marqules tәnliyini alarıq:

$$d\ln P_1 = -\frac{n_2}{n_1} d\ln P_2 = -\frac{N_2}{N_1} d\ln P_2$$

Bu tәnliklәrdәn istifadә edәrәk mәhlullar nәzәriyyәsinin bir çox mühüm mәsәlәlәri izah edilir.

**İstifadә edilmiş әdәbiyyat:**

1. Воюцкий С.С. Курс коллоидной химии. Москва, «Высшая школа», 1975.
2. Ağdamski T.Ә. Kolloid kimya. Bakı, ADPU, 2011.
3. Bәdәlbәyli-Ağdamski T.Ә. Fiziki vә kolloid kimya, Bakı, ADPU, 2017.

*Т.А.Агдамский*

**Термодинамика растворов, химический потенциал компонентов рствора**

**РЕЗЮМЕ**

Статья посвящена термодинамике растворов и химическим потенциалом компонентов раствора. Введенные соотношения играют большую роль при изучении равновесей как в гомогенных, так и в гетерогенных системах.

Уравнение Гиббса-Дюгема и Гиббса-Дюгема-Маргулеса широко используются в теории растворов.

***T.A.Agdamsky***

**Thermodynamics of solutions, chemical potential of solution components**

**SUMMARY**

The article is devoted to the thermodynamics of solutions and the chemical potential of the components of the solution. The introduced relations play an important role in the study of equilibria in both homogeneous and heterogeneous systems.

The Gibbs-Duhem and Gibbs-Duhem-Margules equations are widely used in the theory of solutions.

**Açar sözlər:** kimyəvi termodinamika, kimyəvi potensial, doymuş buxar təzyiqi.

**Ключевые слова:** химическая термодинамика, химический реакция, давление насищенного пара.

**Key words:** chemical thermodynamics, chemical reaction, saturated vapor pressure.